Kredo 2019.- 6 iyun.- S.16.

# Xalq yazıçısı İsmayıl Şıxlının həyat və yaradıcılığına həsr olunan yeni kitab işıq üzü görüb




Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə gerçəkləşdirilən layihə çərçivəsində "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xalq yazıçısı, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim İsmayıl Şıxlının həyat və yaradıcılığına həsr olunan "İsmayıl Şıxlı. Biblioqrafiya" kitabı Bakı şəhərində 288 səhifə həcmində, 300 tirajla işıq üzü görüb.

Tərtib edənlər Mətanət İbrahimova Gülbahar Misirova, elmi redaktor Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov, redaktor Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyeva, ön sözün müəllifi filologiya üzrə elmlər doktoru, professor Buludxan Xəlilovdur.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdiyi "İsmayıl Şıxlı" biblioqrafik vəsaiti Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ədəbiyyatşünas, publisist, yazıçı, pedaqoq, ssenarist İsmayıl Şıxlının (Şıxlinski İsmayıl Qəhrəman oğlu) anadan olmasının 100 illiyinə həsr edilmişdir. Biblioqrafiyada yazıçının həyat və yaradıcılığına aid zəngin material toplanmışdır. Kitab ədəbiyyatşünaslar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin 28 yanvar 2019-cu il tarixli sərəncamına əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir.

***Kamran MURQUZOV,***
***Azərbaycanın Mədəniyyət və Ədəbiyyat Portalının Mətbuat xidmətinin rəhbəri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***